Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
"İctimai və dövlət maraqları"

# "Azərbaycan qadınları emansipasiya yollarında"

## Və ya azərbaycanlı qadınların bugünkü azadlıq, xoşbəxtlik və uğurlar naminə keçdiyi məşəqqətli yoldan xəbərdar olaq

**Kiçik arayış: Əliyeva Lətifə Ağaqasım qızı 1947-ci ildə Bakı şəhərində hərbçi ailəsində anadan olub. 1969-cu ildə BDU-nun tarix fakültəsini bitirib. İlk əmək fəaliyyətinə Partiya Tarixi İnstitutunda kiçik elmi işçi kimi başlayıb. 1989-cu ildən BDU-nun tarix fakültəsində çalışır. 1997-ci ildə "70-ci illərdə Azərbaycan sənayesində yenilikçilər hərəkatı" mövzusunda namizədlik, 2017-ci ildə isə "Şimali Azərbaycanda qadınların vəziyyəti (1900-1922)" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. 4 kitabın tərtibatçısı, 2 monoqrafiyanın, 1 dərs vəsaitinin, 1 proqramın və 40-dan çox elmi məqalənin müəllifidir. "Tərəqqi" medalı və "Nəsrəddin Tusi" fəxri mükafatına layiq görülüb.**

Lətifə xanımla eyni universitetdə (Bakı Dövlət Universiteti) işləməyimizə baxmayaraq, onunla ilk dəfə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində tanış oldum. L.Əliyeva zaman o burada elmi işlər üzrə direktor müavini vəzifəsində çalışırdı. Arxivin rəhbəri məzuniyyətdə olduğu üçün məktubuma Lətifə xanım qol çəkdi. Təşəkkürümü bildirib otağından çıxarkən dedi: "Kaspi"də məqalələrinizi oxuyuram. Maraqlı mövzulara müraciət edirsiniz. Xüsusən də 20-ci yüzilliyin əvvəllərində yaşayıb-yaradan qadınlarımızla bağlı məqalələriniz daha çox diqqətimi cəlb edir. Mənim də doktorluq mövzum qadın hərəkatı ilə bağlıdır. 1900-1922-ci illərdə Azərbaycan qadınlarının azadlıqları uğrunda apardığı mübarizədən, rastlaşdığı problemlərdən və s. Qismət olsa, müdafiədən sonra monoqrafiya şəklində çap etdirəcəyəm".

Bu görüşümüzdən bir-necə il keçdi. Lətifə xanımla bu dəfə Azərbaycan Milli Elmlər Akademiyasının N.Gəncəvi adına İnstitutunda keçirilən möhtəşəm bir tədbirdə görüşdük. Söhbət zamanı bəlli oldu ki, 2017-ci ildə "Şimali Azərbaycanda qadınların vəziyyəti (1900-1922)" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. Əlindəki kitab isə "Azərbaycan qadınları emansipasiya yollarında (1918-1920)" adlı monoqrafiyasıdır.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş bu əsər 2018-ci ilin son aylarında çap edilib. Zəngin arxiv sənədləri, dövrü mətbuat materialları əsasında ərsəyə gələn əsəri ilk cümləsindən son




abzasına kimi maraqla oxudum. Lətifə xanımın belə bir maraqlı və zəngin faktlarla əhatə olunan əsəri ərsəyə gətirmək üçün ölkəmizin hüdudlarından çox uzaqlarda - Türkiyə Respublikasının Osmanlı Arxivində, Rusiya Federasiyası Dövlət Arxivində, Sankt-Peterburqdakı Dövlət Tarix Arxivində uzun-uzadı araşdırmalar aparmışdır. Müəllif Azərbaycanın milli hərəkatında, siyasi həyatında qadınlarımızın necə böyük çətinliklərlə qarşılaşaraq, cəmiyyətdə yüksək nüfuz qazanmasını faktlarla əks etdirə bilib.

Lətifə xanım müraciət etdiyi dövrdə Azərbaycan cəmiyyətində gedən modernləşmə proseslərinin və müasirləşmənin qadınların vəziyyətinə təsirini, onların mülki və siyasi hüquqlarını, islam dünyasında Azərbaycan qadınlarının yerini və s. məsələləri ətraflı şəkildə təhlil edib.

Bildiyimiz kimi, Azərbaycanda qadınlara seçib-seçilmək hüququ 100 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyəti dövründə verilmişdir. Lakin onlar bu uğura birdən-birə nail olmayıblar. Bunun üçün məşəqqətli yollar keçib, nələrisə qurban veriblər. Bax, Lətifə xanım əsərində, Azərbaycan tarixində ilk dəfə olaraq qadınlara kişilərlə bərabə, geniş formatda mülki, əmək və siyasi, ən başlıcası, Avropa, Amerika qadınlarından daha öncə seçki hüququnun əldə edilməsi sahəsində aparılan mübarizə və bu mübarizənin ən tanınmış nümayəndələri haqqında ətraflı məlumat verir.

Monoqrafiyanın "Azərbaycan Xalq Cümhuriyyətində qadın məsələlərinin həlli" (1918-1920-ci illər) və "Azərbaycan qadınları azadlıq illərində" (1918-1920-ci illər) bölmələrində seçki hüququ məsələsini geniş təhlil edən tədqiqatçı xanım qeyd edir ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadınlar hökumətdən hüquq və azadlıq alaraq, öz ictimai-siyasi fəaliyyətini aktivləşdirdilər, cəmiyyətin həyatında mühüm rol oynamağa başladılar.

Lətifə xanım əsərində Azərbaycan qadınının maarifçilik və mədəni inkişafdakı rolunu, xeyriyyə cəmiyyətlərindəki fəallığını, milli məfkurəmizin oyanmasında, dövlətçilik işindəki xidmətlərini əks etdirməklə, Azərbaycan qadınının müsbət portretini yaradır.

Əslində Lətifə xanım üçün bu, yeni bir mövzu deyil. O, bu mövzuda çoxsaylı elmi-publisistik məqalələrin və bir neçə əsərin müəllifidir. Həyatını milli qadın hərəkatının inkişafına həsr edən görkəmli bir ziyalı, öz dəsti-xətti ilə seçilən tarixçi alimdir. Məhz bu mövzu ilə bağlı ABŞ, Türkiyə, İspaniya, Rusiya, Ukrayna, Moldova və Gürcüstanın nüfuzlu elmi jurnallarında məqalələr çap etdirib, Almaniyada, Polşada, Rusiyada keçirilən beynəlxalq konfrans və simpoziumlarda elmi məruzələrlə çıxış edib. O, çıxışlarında müraciət etdiyi tarixi faktlar əsasında Azərbaycan tarixində silinməz izlər qoyan, cəmiyyətdə yüksək nüfuz qazanan, fəaliyyətləri ilə nəsillərə örnək olacaq qadınlarımızdan fəxrlə danışır.

Tarixçi alim İslam aləmində Azərbaycan qadınının yeri və ona münasibət məsələsini də geniş şəkildə işıqlandırıb. Bu mövzuda bir çox yazarların, xüsusən Əhməd bəy Ağaoğlunun məqalələrinə müraciət edib. Xanım tədqiqatçı yazır ki, yüksək Avropa təhsili görmüş Ə.Ağaoğlu, İslamın ünvanına deyilən bütün ittihamları təkzib edir və sübuta yetirirdi ki, qadınlara ən böyük qiyməti qadın haqqında xüsusi surələrin yer aldığı Quran verir.

Müəllif, əsərində Azərbaycan qadınının azadlığı, xoşbəxtliyi uğrunda illərlə apardığı mübarizələrdən danışarkən, bu mübarizə zamanı vətəninə, ailəsinə sədaqətini, bağlılığını da unutmadığını fəxrlə qeyd edir.

Özbək şairi Əlişir Nəvai yazırdı ki, dünyada kitabdan əziz dost yoxdur. Hörmətli oxucum, indi sizi bu dostla baş-başa buraxıram. Oxu, öyrən və düşün. Xüsusən də qadın oxucum. Çünki, bugünkü azadlığın, xoşbəxtliyin və uğurların üçün Azərbaycan qadınının keçdiyi məşəqqətləri bilsən, yaxşı olar.



Qərənfil Dünyaminqızı,
Əməkdar jurnalist